# Xalq maarifi

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100



Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən xalq maarifinin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirirdi. Çünki Çar hakimiyyəti Rusiyanın müstəmləkə əsarəti altında olan xalqlarının milli-siyasi mənlik şüurunun oyanmasına hər vasitə ilə mane olmuşdu. Çar Rusiyasında xalq məktəbləri dövlət orqanizmində "yaman şişi" xatırladırdı. Hökumət hər tərəfdən xalq təhsilinin inkişafı ilə razılaşmağa məcbur olurdu. Çünki dünyada elm və texnikanın sürətlə inkişafı Rusiyada da maarifin və xalq təhsilinin tamamilə yenidən qurulmasını tələb edirdi. Digər tərəfdən, çarizm xalqın oyanmaqda olan şüurunun qarşısını almaq üçün xalq maarifi işini məhdud çərçivədə saxlamaq istəyirdi. Çar Rusiyasında xalq maarifi və onun əsas daşıyıcısı olan müəllimlər hökumət tərəfindən hər cür həqarətə və təqiblərə məruz qalırdı.

Milli ucqarlarda, o cümlədən Şimali Azərbaycanda vəziyyət daha dözülməz idi. Burada zorla ruslaşdırma siyasəti yeridilir, təhsil, əsasən, rus dilində aparılır, milli dil və mədəniyyətin inkişafına hər cür əngəllər törədilirdi.

1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildiyi gün Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılan birinci hökumət kabinəsində Xalq Maarifi Nazirliyi də təsis olundu. Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi nazirlik öz fəaliyyətinə Azərbaycan xalq maarifinin vəziyyətinin və bu sahədə həyata keçiriləcək vəzifələrin müəyyənləşdirilməsi ilə başladı.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xalq maarifinin inkişafına çox mühüm təkan verən ilk tədbirlərindən biri 1918-ci il 27 iyun tarixli qərar oldu. Həmin qərara əsasən, Azərbaycan-türk dili dövlət dili elan edildi.

Təhsil sahəsində həyata keçirilən ilk mühüm tədbir məktəblərin milliləşdirilməsi oldu. Azərbaycan hökumətinin 1918-ci il 28 avqust tarixli qərarında göstərilirdi ki, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin öz ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan dilinin tədrisi icbari surətdə həyata keçirilməlidir. Azərbaycan dilini bilməyən şagirdlər üçün üçüncü və dördüncü siniflərdə rus şöbələri açılır və burada Azərbaycan dili intensiv surətdə tədris olunurdu.

Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində, artıq 1919-cu ilin əvvələrində ölkədə dövlət hesabına 637 ibtidai məktəb və 23 orta ixtisas təhsil məktəbi fəaliyyət göstərirdi.

Orta məktəblər arasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina qız tədris müəssisəsi, politexnik məktəb və kommersiya məktəbi var idi.

1919-20-ci tədris ilində Azərbaycanın orta məktəblərində, müəllim seminariyalarında oxuyanlar istisna olmaqla, 9611 şagird təhsil alırdı ki, onların da 3115-i azərbaycanlı, 6496 nəfəri isə başqa millətlərin nümayəndələri idi.

Bakıda universitet açılmasına böyük əhəmiyyət verən Cümhuriyyət hökuməti bu məsələni 1919-cu il 8 aprel tarixli iclasında müzakirə etdi. Qəbul olunan qərarda bütün imkanlardan istifadə edərək, 1919-20-ci tədris ilinin əvvəlində Bakıda universitet açılması məqsədilə Xalq Maarifi Nazirliyinə tapşırıldı ki, ümumi həcmi 10 milyon manatdan çox olmamaq şərtilə, smeta hazırlayıb hökumətə təqdim etsin. Hökumətin qərarına əsasən, Bakı Universiteti kommersiya məktəbinin binasında yerləşdirilməli idi.

1919-cu il senytabrın 1-də Azərbaycan Parlamenti, nəhayət, Bakıda dövlət universitetinin açılması haqqında qanun qəbul etdi. 1919-cu il noyabrın 15-də universitetin auditoriyalarında ilk mühazirələr başlandı.

1919-20-ci tədris ilində universitetdə 1094 tələbə təhsil alırdı ki, onların da 217 nəfəri azad dinləyici idi.

Azərbaycan Parlamenti 1919-cu il senytabrın 1-də Bakıda dövlət universitetinin açılması haqqında qanunla bərabər, 1919-20-ci tədris ilində dünyanın müxtəlif ali məktəblərində dövlət hesabına təhsil almaq üçün 100 nəfər azərbaycanlı gəncin xaricə göndərilməsi haqqında da qərar qəbul etdi.

Azərbaycan Xalq Cümhuriyyətinin xalq maarifinin inkişafında və mədəni quruculuq sahəsində qısa müddət ərzində həyata keçirdiyi mühüm tədbirlər sonralar respublikada xalq maarifinin təşkilində mühüm rol oynadı.